UOT 82-3

# HÜSEYN İBRAHİMOVUN POVESTLƏRİNDƏ KONFLİKT VƏ XARAKTER

**S.Ş.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***samiraquliyeva@mail.ru***

*Azərbaycan yazıçılarının orta nəslinə mənsub olan xalq yazıçısı Hüseyn İbrahimov müasir ədəbiyyatımızın inkişafında müstəsna xidmətləri olan sənətkarlardandır.*

*Yaradıcılığa şeirlə (1944) başlayan yazıçı sonralar daha irihəcmli əsərləri ilə məşhurlaşmışdır.*

*H.İbrahimovun zəngin yaradıcılığında povestlərinin özünəməxsus yeri vardır. 50-ci illərdən xeyli sayda povestlər yazan istedadlı yazıçı onların hər birində öz sənətkarlıq mövqeyini qoruyub saxlaya bilmişdir.*

*Məqalədə bu povestlərin mövzu və ideyasından, xarakter obrazlar aləmindən söhbət açıldığı kimi eyni zamanda qadın ləyaqəti, qadın mənəviyyatı, qadın ucalığı və s. problemlərin həlli yollarından da söhbət açılır.*

**Açar sözlər:** povest, janr, konflikt, obraz

Ədəbiyyata orijinal nasir kimi qədəm qoyan və məhz bu orijinallıq sayəsində də hadisələrin mahiyyətinə nüfuz etməyi bacaran Hüseyn İbrahimov yaradıcılığında yığcam və lakonik məişət povestlərinin öz yeri vardır. "Bu janr romana yaxındır, lakin bir çox xüsusiyyətləri ilə ondan fərqlənir. Burada bir çeviklik, dinamiklik özünü göstərmişdir, ədib elə həyati hadisə seçməlidir ki, o həcminə və məzmununa görə povest çərçivəsinə yerləşə bilsin" (7, 186).

H.İbrahimovun povestləri az deyil. II Dünya müharibəsi illərindən ədəbiyyata gələn yazıçı povestlərində sənətkar mövqeyini və yaradıcılıq xislətini qoruyub saxlamışdır. İstedadlı yazıçı öz povestlərində həyatın, demək olar ki, bir çox sahələrini əhatə edir, müxtəlif xarakterlər yaradır. Onun povestlərinin başlıca məziyyətlərindən biri cəmiyyət və insan üçün son dərəcə vacib olan humanizm ideyalarını sənətkarlıq və cəsarətlə əks etdirməsidir. İlk variantlarda hekayə kimi təqdim olunan "Baharın hekayəsi", "Göyərçinin məhəbbəti", "Səhv edəndə" – povest tələblərinə tam cavab verən ədəbi əsərlərdir.

"Baharın hekayəsi", "Göyərçinin məhəbbəti", "Səhv edəndə", "Kamalın ad günü", "Qu quşları öləndə oxuyurlar", "Ölməz mahnılar" kino-povesti və

başqa əsərlərində dövrün və sosial mühitin ağrı-acısını dadan insanlarla rastlaşırıq.

Təsadüfi deyil ki, yazıçının ilk qələm təcrübələrindən olan “Baharın hekayəsi” haqqında ilk dəfə povest sözünü işlədən Rəsul Rza yazırdı: “Bu povest ciddi yaradıcılıq işinin məhsuludur. Buradakı hadisələrin həyatiliyi, ayrı-ayrı obrazların inandırıcılığı və əsərin ümumi ruhundan doğan tərbiyəvi mənası bizə bu povesti nəsr əsərlərimizin ən yaxşı nümunələri sırasına qoymağa haqq verir” (8, 12).

Qadın ləyaqəti, qadın mənəviyyatı, qadın ucalığı H.İbrahimov hekayələrində və povestlərində aparıcı meyl kimi özünü göstərmiş, “Qu quşları öləndə oxuyurlar” povestindəki Bəhriyyə obrazı ilə özünün kulminasiya nöqtəsinə çatmışdır.

H.İbrahimovun nəsrindən bəhs edən müəlliflərin əksəriyyəti onun müasirliyini, həyatı dinamik inkişaf prosesində təsvir etmək cəhətlərini həmişə yüksək qiymətləndirmişlər. Bu inkişaf ədibin əsərlərində çılpaq şəkildə, hazır modellərlə göstərilmir, ziddiyyət və nöqsanlarla birlikdə götürülür və təhlil olunur. Ümumiyyətlə, yazıçının dil mədəniyyəti, bədii axtarışlarının bir çox müsbət və rəğbət doğuran cəhətləri, təbliğ etdiyi humanizm, mənəvi gözəllik, saf məhəbbət, yalnız şairanə lövhələrlə əks etdirilməsi bu povesti bədii nəsrimizin dəyərli nümunələrindən biri kimi qiymətləndirilməyə haqq verir.

Yazıçı “Baharın hekayəsi”ndə maraqlı bədii priyomdan istifadə edərək qatarda görüşdüyü qızın ona verdiyi dəftərdən hadisələri təfərrüatı ilə səciyyələndirir. Hekayədə gənc və təcrübəsiz qadının qeyri-insani keyfiyyətlərə malik olan Səlim kişi alçağa inanıb gözəl ailəsini dağıtması təsvir olunur.

Povestdən göründüyü kimi, Bahar və Ramiz səmimi bir ailə qurmuşlar. Hər ikisi sənaye institutunu bitirmişdir. Əli qabarlı, sağlam düşüncəli Ramizin müqəddəs ailəsini dağıtmaq istəyən Səlim mənən pozğun, sabahı görməyən gəncdir. Ramiz və Səlim eyni cəmiyyətin, eyni mühitin adamları olmasalar da, xarakter etibarilə, düşüncə tərzi baxımından başqa-başqa adamlardır. O, Baharı tovlayıb, ailəsini dağıtmaq istəsə də, istəyinə nail ola bilmir, ailə bərpa olunur.

Təsadüfən onları dəniz kənarında görən Vahid müəllim indi Baharın dodaqlarındakı təbəssümdə heç bir gizli kədər görmür. Bahar onların xoşbəxtliyinin bərpasında böyük rolu olan Vahid müəllimə minnətdarlığını bildirib, onu ailəsi ilə tanış edir. Vahid müəllimin sözlərinə fikir verək: “Həyat çox şirindir, Bahar! Ondan üz döndərmək olmaz. Ləyaqətli insanlar həyatın enişli-yoxuşlu yollarında büdrəsələr də, ruhdan düşmürlər. Sən də ruhdan düşmə, Ramiz səni axtarıb tapar” (5, 130).

Müəllif bu povestdə həyati hadisələr və real obrazlar vasitəsilə müasir gənclərimizin mənəvi gözəlliklərini, saf məhəbbət duyğularını qələmə almış, cəmiyyətimizdə olan yad meylləri, mənəvi əxlaqsızlığını qəzəblə damğalamışdır.

H.İbrahimovun epik təhkiyəsində nəzərə çarpan sakit, təmkinli təsvir hekayədən povestə keçidi bədii baxımdan əsaslandırmışdır. Bu mənada müəllifin “Göyərçinin məhəbbəti”, “Baharın hekayəsi, “Kamalın ad günü”, “Səhv

edəndə” povestləri təsvir üslubundan tutmuş, həll etdiyi problemlərə, canlandırdığı obrazlaradək hekayələrdə toxunulan məsələlərin inkişaf etdirilmiş forması da hesab edilə bilər. “Göyərçinin məhəbbəti” povestində isə hadisələr bir qədər əksinədir. “Göyərçinin məhəbbəti”nin əsas konflikti ömür yoldaşının təmiz sevgisini qiymətləndirməyi bacarmayan, nəcib bir kənd qızının saf məhəbbətini Qızxanım kimi ləyaqətsiz qadının fitnə - fəsadına qurban verən Yusifin xarakteri məharətlə açılır. Yusif bənnalıq kursunu bitirib kəndə qayıdır. O bir az dəlisov, bir az qısqanc gəncdir. Bənnalıq kursun həyat yoldaşı Göyərçinin və dostu Dilavərin köməkliyi ilə bitirmişdir. Ailədə yaranan dedi-qodular, Yusifin həddən ziyadə qısqanclığı bu izdivacı pozur. O, şəhərə gəlir, qısa müddətdə yüngültəbiətli Qızxanımla evlənir. Bu ailə həyatında da heç bir şey qazana bilmir. Belə bir məqamda yaxın dostu Dilavər ona köməklik edərək əvvəlki ailəsinə qovuşdurur. Öz əməllərindən korpeşman olan Yusif narahatlıq hissi keçirir, doğma həyətlərinə çəkinə-çəkinə daxil olur. O, ağır sınaq qarşısında tərəddüd edir... “Qapını döyür. Göyərçin kimsən? – soruşub səsi tanıyandan sonra qapını açır. Onun lal sükutu Yusifə ölümdən betər idi. Yusif divanda əyləşir. Onun günahlarını göz yaşları yuya bilərdi” – yazır müəllif (4, 108).

H.İbrahimov birinci əsərdə qızların həyatın ağır sınaqlarında uğursuzluğunu təbliğ edirdisə, ikinci povestdə isə seçdiyi hədəf oğlanlardır. Yusif kimi tora düşüb gözəl ailələrini dağıdan, sonra ömrü boyu əzab çəkən gənclərimiz məgər həyatda azdırmı?

Gələcək nəsillərə bu həyatı arzulamayan müəllif onları ayıq – sayıq olmağa, ailə səadətini və qədrini bilməyə çağırır. Əsərdə, qəhrəmanın dediyi kimi, “bu illər ərzində onlarla binalar tiksəm də, əllərimlə yıxdığım öz evimi necə bərpa etməyi bacarmadım” (4, 108).

Hekayələrində olduğu kimi, yazıçının bu mövzuda yazdığı povestlərində də fəal mənəvi təmizlik məsələsinə geniş yer verilmişdir. Bu, müasir həyatı hərtərəfli və dərindən həqiqi bədii boyalarla əks etdirmək istiqamətində aparılan yaradıcılıq axtarışları ilə bağlıdır. Təhlilə cəlb edilən povestlər bu meylin aydın təzahürlərindən biridir.

Hüseyn İbrahimov müasirliklə nəfəs alan sənətkardır. Müasirlik geniş anlayış olub, mövzu ilə yanaşı, yazıçının qələmə aldığı hadisə və obyektə münasibəti ilə bağlıdır. Sənətdə və ədəbiyyatda müasirlik ən mühüm keyfiyyətlərdən biridir. “Hər hansı növdə və janrda yaradılmasından, hansı mövzuya həsr edilməsindən asılı olmayaraq həqiqi sənət nümunəsi bədii əsər müəllifinin öz zəmanəsi ilə təmasını əks etdirir, bütövlükdə öz müəllifinin müasirliyə xidmət cəhdlərinin və səylərinin nəticəsi kimi yaranır” (3, 5).

Hüseyn İbrahimov, bir sıra əsərlərində olduğu kimi, burada da əxlaq və tərbiyə mövzusunu ön plana çəkmiş, müasirlərinin portretini yaradarkən onların başlarına sığal çəkməmiş, Baharların, Göyərçinlərin, Yazgüllərin, Qızların mürəkkəb, dolanbac, çətin sınaqlardan keçən yollarını izləyə-izləyə işığa doğru aparmışdır. Bu bədii portretlər – qüsurları, nöqsanlı cizgilərilə bizim

müasirlərimizdir. Biz onların səhv addımlarına acısaq da, nöqsanlarını başa düşdükləri üçün bağışlayırıq. Çünki yazıçı onların qanadlarını sındırmır, sabaha ümidlə yaşadır.

Bu mənada müəllifin "mən"ində bütöv bir maarifçilik ruhu, təlim və tərbiyə sistemi mövcuddur. Bu əslində yazıçı məramı, yazıçı qayəsidir. Elə sənətkarlar var ki, mənfi tipləri islah etmək əvəzinə, onları ölümə doğru sürükləyir, heç bir işıq yolu qoymurlar. Lakin H.İbrahimov təbiətən işıqlı sənətkar olduğu üçün mürəkkəb təbiətli, ziddiyyətli, uğursuz xarakterləri belə aydın sabaha yönəltməyi bacara bilirdi.

Yazıçı qayəsini şərtləndirən vacib anlardan biri də məhz budur. Bu amil söz ustasının adi insanlardan fərqləndirən məziyyətlərdir. Çünki yazıçının yaratdığı ən kamil portretlərin arxasında yazıçı özü dayanır.

H.İbrahimov fəal müşahidəçi, axtaran və öyrənən sənətkarlardan biri idi. Onun mövzularda müxtəlifliyi və rəngarəngliyi ilə seçilirdi. Belə povestlərdən biri də "Səhv edəndə"dir. Bu povestdə onu əvvəlkilərdən fərqləndirən süjetlər var. Bahar ailəli olduğu halda, bu əsərin qəhrəmanı Qızlar sevgi nə olduğunu bilməyən bir gənc qızdır. Atasız-anasız böyüyən bu sadəlövh təbiətli qız bir fırıldaqçının toruna düşür. Ona görə də, təsadüfən tanış olduğu oğlanı yaxından tanımadan, bərkə-boşa salmadan onunla evlənməyə razı olur. Halbuki ilk tanışlıqdan oğlanda olan bəzi cəhətlər onun xoşuna gəlmir. Bununla da, Qızlar sadəlövhcəsinə faciəyə doğru sürüklənmiş olur. Qızlar oğlanın bir sıra qüsurlarını, o cümlədən əlinin üstündə döydürdüyü oxlanmış ürək şəkli, tülkü cildinə girərək yalandan özünü yetim kimi qələmə verməsini də, təbii edir. O, oğlanı sevdiyi üçün bu qüsurlara göz yummalı olur. Halbuki, ikinci görüşdən oğlanın baxışlarını "ov üstünə atılmağa hazırlaşan pələngin gözlərinə bənzətməsi onun gözüaçıqlığına dəlalət etsə də sevgisi naminə hər şeyi unudur. Gələcəkdə düzələcəyi ümidi ilə sevgisi xətrinə bu fırıldaqçıya inanıb onun evinə gəlin köçür, yenicə ailə quran bu fırıldaqçı iki həftədən sonra yenə də Qızları aldadaraq ezamiyyətə gedəcəyini söyləyir. Bir neçə müddətdən sonra qanun keşikçilərinin köməyi nəticəsində məlum olur ki, bu aspirant Cabir yox, dələduz, Həcər adlı bir qadınla birləşərək rayonda külli miqdarda pulu mənimsəyib, cavan arvadı və körpəsini atıb qaçan Səməd Nəzər oğludur.

Bu iyrənc tip şəhərə gəldikdən sonra kassanı yarıb pul oğurlayır və gözətçini yaralayıb qaçır: "Cabir"in şəklini onların əllərində görən Qızlar bütün əməllərinin dərin peşmançılığını çəkir.

H.İbrahimovun adı çəkilən povestlərinin başlıca cəhətlərindən biri də konfliktin əsasını təşkil edən situasiyaların mahiyyətini ictimai-siyasi problemlərə və əxlaqi problemlərə əsaslanaraq real şəkildə əks etdirməsidir. Bu povestlər maraqlı quruluşda, səlis, sadə və bədii dildə yazılmışdır. "Bədii dil, bədii əsərlərdə həyatı, varlığı şairanə bir şəkildə, lövhələr vasitəsilə əksetdirmə vasitəsidir" (7, 80).

İlk variantlarda birpərdəli pyes kimi işlənmiş "Kamalın ad günü" povestində meşşan, harın bir ailənin başdan-başa səhvlər üzərində kökləndiyi

göstərilmişdir. Anbardar Hacıağa, onun meşşan arvadı Mələk xanım, ərköyün qızı Toma, mənəviyyatsız əlaltısı Əsəd, əxlaq normalarına zidd olan cinayət xarakterli səhvlərə yol vermişlər. Əsərdə hadisələr təkcə bir ailə məsələsi çərçivəsində qapanıb qalmır, rüşvətxorluq, korrupsiya xəstəliyinə tutularaq dövlət, xalq malına xor baxanların acınacaqlı, uğursuz taleyi ustalıqla təsvir olunur. Məsləksiz, şəxsiyyətsiz tip olan Hacıağa kimi üzdəniraq müdirlərin ailədə də rəhbərlik səriştəsinin olmaması ucbatından iflasa uğramasını məharətlə göstərən H.İbrahimov, bir qədər qeyri-real görünsə bu ailənin yeganə zəhmətkeş nümayəndəsi Kamalın zəngin mənəviyyatını, ruhi təmizliyini bu natəmizlərə qarşı qoyur. Toma kimi "mamasının gül balası"ndan fərqli olaraq bu ağıllı, tədbirli gənc uzaqgörənliklə ailəsinin acınacaqlı təbiətini görür və xəbərdarlıq edir:

"Bəzən yolunu azmış bir gəmi, balaca qayığın köməyi ilə sahilə çıxa bilər" – fikrini əsas tutan Kamal, onları islah edə bilmir və ailəsindən üz döndərib halallıq axtarışına çıxır. Halallığın haramlıq, düzgünlüyün əyrilik üzərində qələbəsinə bir ailə daxilindəki konfliktlər zəminindən ictimai plana çıxaran müəllif, rüşvət və korrupsiyanın acı nəticələrinin nəinki bir ailəni, hətta bütöv cəmiyyəti iflasa aparacağını təlaşla söyləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dərin məzmunlu çıxışında bu barədə oxuyuruq: "Rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə daha da ciddi aparılmalı, ictimai nəzarət gücləndirilməlidir" (1).

H.İbrahimovun nasirlik bacarığı və istedadı onun müharibə mövzusunda yazdığı povestlərində də aydın görünür. Yazıçının povestləri dərin məzmun, ideya saflığı, zəngin yaradıcı təxəyyül tərzi, fikrin tam dolğun ifadəsi, həyati süjet xətti ilə diqqəti cəlb edir. H.İbrahimov müharibə mövzusunda çox yazmışdır. Bu mövzuda ədibin yazdığı hekayələri "Qu quşları öləndə oxuyurlar" (1985) adlı kitabında toplanmışdır. "Müharibənin dəhşətləri bizdən uzaqlaşsa da, ədəbiyyat müharibə mövzusuna yenidən, daha böyük diqqət və həssaslıqla müraciət edir. Tarixi qələbələrin tarixi səbəbləri ilə yanaşı, onun mənəvi – psixoloji kökləri daha geniş miqyasda bədii tədqiqata cəlb olunur" (2, 38). Yazıçının 1985-ci ildə oxuculara təqdim etdiyi "Qu quşları öləndə oxuyurlar" povestində qəhrəmanların keçirdiyi həyəcan və iztirabları təbii və inandırıcı boyalarla təsvir edilmişdir. Onun mövzusu müharibədən götürülmüş povestlərinin demək olar ki, hamısının qəhrəmanları gənc azərbaycanlı qızlardır. Bu povestlərdə Böyük Vətən Müharibəsi cəbhələrində şücaət göstərən Azərbaycanlıların şərəfli yollarından səhifələr verilir. Bu səhifələr həm qəhrəmanlarımızın döyüş portretini canlandırır, həm də böyük qələbəmizin əsas səbəblərindən olan mənəvi birliyimizi bədii lövhələrlə əks etdirir. Şəhid qızlarımızın xatirəsinə həsr olunmuş bu povestdə cəbhədəki əsgərlərin mənəvi dayağı olan Bəhriyyə kimi namuslu, qeyrətli qadınlarımızın dəyanəti, mətanəti tərənnüm olunur. Bəhriyyə obrazı ilə müəllif Azərbaycan qadınlarını – o cümlədən şəhidlik səviyyəsinə yüksəlmiş Salatınları, Gültəkinləri yenidən qızışmağa başlayan Qarabağ müharibəsinə hazırlamışdır. Povestdən gördüyümüz kimi

artıq müharibə başa çatmış, əhdinə, sədaqətinə etibarı olan Bəhriyyə ilk sevgisinin yadigarı olan Vahidi evləndirmiş və dünyaya Azad adlı nəvəsi gəlmişdir. Həyat yoldaşı Cəlalın qayıdacağına ümidini itirməyən bu vəfalı qadın onun ölümündən sonra "Qızıl ulduz" ordeninə layiq görülməsi xəbərini laqeydlə qarşılayır. Bəhriyyə ordeni mayora verməyə qoymayıb və ötkəm səslə - deyir: "yalandı!" Mən inanmıram, Cəlal sağdı. Qayıdar özünə verərsiniz" (6, 33).

H.İbrahimovun qiymətli əsərlərindən sayılan "Ölməz mahnılar" kinopovesti mədəniyyət tariximizdə misilsiz xidmətləri olan dahi bəstəkarımız Üzeyir Hacıbəyova həsr olunmuşdur.

"Ölməz mahnılar" povestində Qarabağın, onun döyünən ürəyi olan Şuşanın keçmişi, keçdiyi tarixi mərhələləri, Xan qızı Natəvandan başlamış Ü.Hacıbəyovadək olan dövr müasirlik baxımından diqqətlə işlənmiş, obyektiv varlığın indiki həqiqətinə çevrilə bilmişdir.

Əsərdə Zülfüqar bəy Hacıbəyov H.Sarabski, Bülbül kimi sənətkarlarımızın Üzeyir bəylə əlaqə və münasibətləri, təqiblərə davam gətirməyib bəzən ruhdan düşən bəstəkara dayaq olan anası Şirinxanımın, etibarlı dostları, ömür yoldaşı Məleykə xanımın dayaq olması və s. kimi sahələr reallığı ilə diqqəti cəlb edir.

Bir sözlə, deyə bilərik ki, yazıçı bu əsəri yaratmaq üçün müxtəlif mənbələri araşdırmış, Ü.Hacıbəyovun həyat yolunu öyrənmiş və bunu sənət dilinə çevirə bilmişdir. Vaxtilə xalq yazıçısı S.Rəhimov bu əsərin məziyyətlərindən danışarkən haqlı olaraq yazırdı:

"H.İbrahimov bu əsərində Üzeyir haqqında yazmaqdan artıq Üzeyirdən öyrənməyə getmişdir. Biz həyəcanla oxunan bu əsəri kino ekranlarında görmək istərdik" (9, 14).

Ümumiyyətlə, keçən əsrin 40-50-ci illərinin Azərbaycan ədəbiyyatının aktual problemləri, ideya-mövzu və əsas istiqamətləri haqqında ümumiləşdirici fikir söyləmək, məhz bu nəsrdə sosial-psixoloji və mənəvi etik problemlərin qaldırılması və həlli baxımından Hüseyn İbrahimovun bədii yaradıcılığı maraqla izlənilir.

## ƏDƏBİYYAT


1. Əliyev İ. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə barədə (Qazax rayonundakı çıxışından). Bakı, "Azərbaycan" qəz., 2011, 19 may
2. Ədəbi proses (1981-1982). Bakı: Elm, 1987, 192 s.
3. Hüseynoğlu T. Söz tarixinin yuvası. Bakı: Azərnəşr, 2000, 182 s.
4. İbrahimov H. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1974, 205 s.
5. İbrahimov H. Nəciblik. Bakı: Yazıçı, 1979, 316 s.
6. İbrahimov H. Qu quşları öləndə oxuyurlar. Bakı: Azərkitab, 1998, 204 s.
7. Mir Cəlal, P. Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Azərnəşr, 2005, 312 s.
8. R.Rza. Xalqın istəyincə. Bakı: Azərnəşr, 1981, 196 s.
9. Rəhimov S. Yazıçı və həyat. Bakı: Azərnəşr, 1974, 211 s.

## КОНФЛИКТ И ХАРАКТЕР В ПОВЕСТЯХ ГУСЕЙНА ИБРАГИМОВА

**С.Ш.КУЛИЕВА**

**РЕЗЮМЕ**

Представитель среднего поколения азербайджанских писателей Гусейн Ибрагимов имеет особые заслуги в развитии современной литературы. Начавший свою творческую деятельность поэзии (1944) он позднее стал известен своими крупными произведениями. В творчестве Г.Ибрагимова особое место занимают его повести. В каждой повести автор смог сохранить свою профессиональную позицию. В данной статье наряду с тематикой и идеей каждой повести говорится также о женской морали и достоинстве.

**Ключевые слова:** повесть, жанр, конфликт, образ

## CONFLICT AND CHARACTER IN HUSEYN İBRAHIMOV’S NOVELS

**S.Sh.GULIYEVA**

**SUMMARY**

Public writer belonging to the middle generation of Azerbaijan writers Huseyn Ibrahimov is one of the craftsmen who has non – substitutive services in the development of our modern literature.

Starting his creativity in 1944, later on he became famous with bigger works.

Novels have a specific place in H.Ibrahimov’s rich creativity. In 50-s he wrote some novels and in each of them he could keep his mastery.

The article deals with the subjects and ideas of his novels, characters and images and ways of solution of such problems as woman dignity, woman morality and so on.

**Key words:** story, genre, conflict, character